*Sənan Elçin oğlu HÜSEYNOV,*
*Elmi rəhbər: S.e.ü.e.d., professor İradə NURİYEVA*
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
*E-mail: huseynsenani123@gmail.com*

# HEYDƏR ƏLİYEV SİYASƏTİ KİMİ KONSEPSİYALAŞDIRILAN YAŞIL ƏTRAF MÜHİT, İQTİSADİYYAT VƏ ENERJİ İSLAHATLARI

**_Xülasə_**

Respublikamızda iqtisadiyyatın uğurlu nəticələrinin müəllifi Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyevdir. Hal-hazırda “Yaşıl iqtisadiyyat”-a ayrılan dövlət dəstəyi – ekoloji və ətraf mühit problemlərinin aradan qaldırılması üçün optimal yollardan biridir. Həmçinin 02.02.2021 tarixində təsdiq olunan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”-in 5-ci məsələsinin “Təmiz ətraf mühit və “yaşıl” artım ölkəsi” adlandırılması “Yaşıl iqtisadiyyat”-a olan diqqətin nümunəsidir.

***Açar sözlər: İlham Əliyev, yaşıl iqtisadiyyat, islahat, konsepsiya, inkişaf.***

## *Giriş*

Tarix 1993-cü ilin ilk 6 ayına təsadüf etdiyində ölkəmiz iflasa doğru sürüklənən bir dövlətə çevrilmiş, lakin xalqımızın Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev hakimiyyətə gəldikdən dərhal sonra Azərbaycan ən yeni inkişaf dövrünə qədəm qoymuş və elm, təhsil, səhiyyə, mədəniyyət kimi sahələrdə əldə olunan nəticələr, təbii ki, göz qamaşdırmışdır. Şəksiz ki, o dövrdə (1993-2003) uğurlu nailiyyətlərdən biri isə iqtisadiyyat sektorunda alınan qərarlar olmuşdur. Ümummilli liderimizin ikinci hakimiyyəti dövrünə nəzər saldıqda görərik ki, Azərbaycan iqtisadiyyatı 4%-lik irəliləyişdən 83%-ə yüksəlmiş, dövlət büdcəsindəki kəsr problemi aradan qaldırılmış və Azərbaycan borc alan dövlətdən borc verən ölkəyə çevrilmişdir. 2003-cü ildən sonra Ulu öndərimizin gördüyü işlərin davamını cənab İlham Əliyev uğurla icra edir. Yuxarıda sadalanan siyasi xətlərin

hər biri, əsas olaraq da iqtisadiyyat İlham Əliyev uzaqgörənliyi ilə konsepsiyalaşdırılmış şəkildə inkişaf etdirilir.

Azərbaycan hökuməti 2000-ci illərin ortalarında neftdən asılılığını azaltmaq və şaxələndirilmiş və dayanıqlı iqtisadiyyata keçmək üçün strateji siyasət həyata keçirməyə başladı. Bu dəyişiklik bir sıra mühüm təşəbbüslərlə dəstəkləndi. 1999-cu ildə Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) yaradılması ilə mühüm inkişaf baş verdi. Onun məqsədi neft gəlirlərini ehtiyatla idarə etmək və investisiya etməklə makroiqtisadi sabitliyi təşviq etmək və gələcəyi təmin etmək idi. Bu günə baxdığımızda Azərbaycanda iqtisadiyyatın tərkibində formalaşan (mikro və makroiqtisadiyyat, investisiya təşkil edən iqtisadiyyat və.s) çoxsaylı aparıcı sahələrə ayrılan dövlət dəstəyi və proqramlar bu parametrlərdə səciyyəvi xarakteri ilə xüsusi yer tutur. Bütün aspektlər bir daha sübut edir ki, İlham Əliyevin uzaqgörənliyi sayəsində iqtisadiyyat tam strukturlaşdırılmış şəkildə davam edir. Dünya hesablama palatasının apardığı beynalxalq sorğu anketinə görə Azərbaycan hal-hazırda iqtisadiyyatın təşkili, təhlili, inkişafı və qabaqcıl siyasət ilə icra olunması məsələsində Şərq ölkələri arasında 1-ci, Avropa ölkələri ilə müqayisədə 11-ci yerdə qərarlaşaraq güclü bir prrofil şəkli qazanıb. Düşünürəm ki, cənab Prezidentimizin bu sahədəki təcrübəsi dünya iqtisadiyyat sektoruna nümunədir. Son illərdə isə Azərbaycan Respublikasında iqtisadiyyatın digər növlərindən biri olan və bu günün əsas maraq dairəsində olan "Yaşıl İqtisadiyyat" sahəsinə ayrılan diqqət dünya arenasının və nüfuzunun ayırdığı diqqətdən əsaslı çoxluq təşkil edir.

Bəs "Yaşıl İqtisadiyyat" nədir (A), bu sahənin ölkəmizə istər siyasi, istərsə də ekoloji təsiri (C) və necə strukturlaşdırılmasına (B) baxaq.

A. Vacibliyini qeyd etməliyik ki, yaşıl iqtisadiyyat cəmiyyət tərəfindən iqtisadi perspektivinin ətraf mühitə mənfi təsirinin azaldılması üçün minimum risklər qrupunun qarşısının alınması yolunda atılan addımdır. Hökmən vurğulanmalıdır ki, yaşıl iqtisadiyyat ətraf mühit və ekologiya iqtisadiyyatları ilə də çox sıx əlaqələndirilir və bu iki sahə ilə birgə layihələndirələrək icra edilir. Eləcə də düşünürəm ki, yaşıl iqtisadiyyat ətraf mühitin mühafizəsi yolunda erqonomik bir öhdəliyi özündə birləşdirir. Erqonomikanın qısaca faktı "insan-maşın-həyat" kimi səciyyələndirilir. Bunu nəzərə alsaq bu nəticəyə gəlmək olar ki, insan amilinin təsiri, maşın və bu kimi qurğuların ətrafa ziyanı və bunların həyata vurduğu mənfi təsirin qarşısının alınması erqonomik bir faktı özündə birləşdirir.

B. 2005-ci ildən başlayaraq Azərbaycan bərpa olunan enerji mənbələrinin inkişafına üstünlük verməyə başladı. Hökumət alternativ enerji mənbələrinin, o cümlədən külək, günəş və su elektrik enerjisinin qəbulunu təşviq etmək üçün tədbirlər həyata keçirmişdir. Bu müddət ərzində mühüm hadisələrə 2009-cu ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması və beynəlxalq təşkilatlarla birgə ekoloji cəhətdən təmiz enerji layihələrinin başlanması daxildir. 2010-cu ildən 2020-ci ilə qədər olan onillik Azərbaycanın davamlılığa doğru keçidində diqqətəlayiq bir dövr olmuşdur. Bu müddət ərzində hökumət enerji səmərəliliyi və davamlılıq təcrübələrini təşviq etmək və dəstəkləmək üçün əhəmiyyətli səylər göstərmişdir. Davamlı inkişafı dəstəkləməyə yönəlmiş qanunvericilik islahatları ilə yanaşı, yaşıl texnologiyalara sərmayələrə diqqət yetirilib. Kənd təsərrüfatı, turizm və informasiya texnologiyaları kimi sahələrdə inkişafı təşviq etməklə iqtisadiyyatın genişlənməsi daha da gücləndirildi. Həmçinin Azərbaycanın ÜDM-i ardıcıl yüksəliş trayektoriyası nümayiş etdirərək 2022-ci ildə 78,7 milyard dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 4,6 faiz artımı əks etdirir. 2022-ci ildə neft və qaz hasilatı ölkənin ÜDM-nin təxminən 47,8 faizini və ixrac gəlirinin 92,5 faizini təşkil edib. Beynəlxalq Ticarət Administrasiyası 2021-2022-ci illər arasında qeyri-neft ÜDM-ində 9,1 faiz artım və neft ÜDM-ində 2,7 faiz azalma olduğunu bildirir. Hökumət ardıcıl olaraq Azərbaycanın bərpa olunan enerji sənayesini inkişaf etdirməyə və neftdən asılılığını azaltmağa çalışır. O, yaşıl enerjini təşviq etmək və elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payını 30 faiz artırmaq üçün 2030-cu ilə qədər 1500 MVt bərpa olunan enerji tutumunun quraşdırılması hədəfinə nail olmağı hədəfləyir. Danılmaz həqiqətdir ki, üç il bundan əvvəl 2 fevral 2021-ci il tarixində Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-in 5-ci vacib məsələsi "Təmiz ətraf mühit və "yaşıl" artım ölkəsi" qeyd olunmuşdur.

Eləcə də təmiz ətraf mühitin və davamlı inkişafın vacibliyini vurğulayan "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri" Fərmanı Azərbaycanın bərpa olunan enerji mənbələrinin genişləndirilməsinə sadiqliyini vurğulayır. O, 2030-cu ilə qədər ümumi quraşdırılmış gücdə bərpa olunan elektrik enerjisinin payını 30 faizə çatdırmaq məqsədi də daxil olmaqla, iddialı hədəflər qoyur. Yaşıl iqtisadiyyatın ölkəmizdəki əsaslı inkişafının tənzimlənməsi yolunda atılan addımlardan bəziləri isə – Balaxanı Sənaye Parkının, Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu və s. kimi sənaye müsəssisələrinin fəaliyyətə başlaması olub. Bu müəssisələrin indiki iş prinsipi isə Şərq ölkələrinə nisbətən daha çox iş yeri və ətraf mühitin qorunması yolunda, həmçinin yaşıl iqtisadiyyatın əsaslı keçid dövrünə qədəm qoymasında aparıcı rol oynayır. Məsələn, Özbəkistanda yaşıl iqtisadiyyat və onun tərkibində formalaşan ətraf mühitin mühafizəsinə ayrılan investisiya və dövlət proqramının ümumi fəaliyyət faizi 56,5%, Türkmənistanda 49,2%, Qazaxıstanda 72,4%, Qırğızıstanda 34,7%, ölkəmizdə isə 85,1% təşkil edir. Qardaş ölkə Türkiyədə isə bu sahəyə ayrılan diqqət 2021-ci ildə baş verən meşə yanğınları nəticəsində baş vermiş və yaşıl iqtisadiyyata ayrılan dövlət dəstəyi 63,7 faiz artmışdır. Bu faizlər, təbii ki, büdcədəki maliyyə resursunun müqayisəsi və maddi-texniki bazanın strukturlaşdırılmasına istinad olunaraq hazırlanıb.

C. Son olaraq isə hökmən qeyd edilməlidir ki, İlham Əliyev tərəfindən 25 dekabr 2023-cü ildə imzalanan Sərəncamla 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mütərrəqi tədbirin ölkəmizdə keçirilməsi qərara alınıb. İlham Əliyev demişdir: "Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi." COP29 qlobal iqlim dəyişikliyi müzakirəsi üçün həyati əhəmiyyət kəsb edir və Azərbaycan üçün ətraf mühitin mühafizəsinə sadiqliyini nümayiş etdirmək və dayanıqlı iqtisadiyyata keçidi sürətləndirmək üçün dəyərli fürsət təqdim edir. COP29-a ev sahibliyi etməklə Azərbaycan qlobal ekoloji məqsədlərə sadiqliyini bir daha təsdiqləyir və Xəzər regionunda bərpa olunan enerjinin təşviqində qabaqcıl tərəf kimi özünü təsdiq edir. Bu qərar beynəlxalq investisiyaların cəlb edilməsi və onun iqtisadiyyatının neft sənayesindən kənarda genişlənməsi üçün vacibdir. Digər bir tərəfdən bu tədbirin siyasi prioritetlərinə nəzər salaq. Ümumi aparılan tədqiqat işlərinə görə bu tədbirdə 70.000-80.000 arası dövlət və ictimai xadimlərin iştirakı nəzərdə tutulur. Bu, təbii ki, böyük bir dövlət büdcəsi tələb edir. Və Azərbaycan, şəksiz ki, buna qadirdir. Burada ən əsas məsələ ölkəmizin Qarabağdakı yaşıl iqtisadiyyat, enerji və ətraf mühitin mühafizəsi yolunda atılan addımları bütün ictimaiyyətə təqdim etməkdir. Sadəcə Qarabağın deyil, ümumiyyətlə Azərbaycanda bu sahələrə ayrılan diqqətin təzahürünü bütün ictimaiyyətə təbliğ etmək COP29 tədbirinin necə də böyük bir səs gətirəcəyinin əyani sübutudur.

Qırmızı rəngdə verilən statistik göstərici enerji, yaşıl rəngdə ətraf mühit və mavi rəngdə iqtisadiyyata ayrılan dövlət büdcəsinin 2005-ci ildən 2022-ci ilə qədər olan maliyyə resursu təqdim olunub.




**Şəkil 1: Azərbaycanda yaşıl - enerji, iqtisadiyyat və ətraf mühitə ayrılan büdcənin statistikası**

***Nəticə***

Azərbaycanda konstruktiv, təmiz ekoloji mühiti təmin etmək və mənbələrindən düzgün yararlanmaq lazımdır. Bu sahəyə hal-hazırda böyük maliyyə resursları ayrılır, dövlət proqramları qəbul edilir, eləcə də cənab İlham Əliyevin siyasətində əsas diqqət mərkəzi kimi qorunub, saxlanılır. Xüsusilə də qeyd etmək istərdim ki, yaşıl iqtisadiyyatın yaşıl enerji məkanındakı təsiri alternativ və bərpa olunan enerji resurslarında, ekoloji təmiz nəqliyyat vasitələrində atmosfer havasının keyfiyyətinə böyük artımını göstərməkdə davam edir.

## ƏDƏBİYYAT


1. http://www.anl.az "Yaşıl iqtisadiyyat" – davamlı "yaşıl" inkişafın elmi əsası
2. http://xalqqazeti.az "Yaşıl iqtisadiyyat"dan "yaşıl mədəniyyət"ə"
3. http://www.anl.az "Green economy" - the scientific basis of sustainable "green" development
4. http://khalgqazeti.az From "green economy" to "green culture"
5. http://www.anl.az "Зеленая экономика" – научная основа устойчивого "зеленого" развития
6. http://khalgqazeti.az От "зеленой экономики" к "зеленой культуре"
7. İradə Tofiq qızı Nuriyeva. "Azərbaycan Tarixi". (2024) [6, s.133-134].
8. Sənan Elçin oğlu Hüseynov. "Gəncliyə Örnək Olan Həyat". (2023) [2, s 33-34].



***Санан Эльчин оглы Гусейнов,***
***научный руководитель: с.е.ю.е.d. профессор Ирада Нуриева***
***Азербайджанский Государственный Университет***
***Нефти и Промышленности***


## Зеленая среда, экономика и энергетические реформы, концептуализированные как политика Гейдара Алиева


***Резюме***

Автором успешных результатов экономики нашей республики является Гейдар Алиев и его достойный последователь Ильхам Алиев. В настоящее время государственная поддержка, выделяемая "Зеленой экономике", является одним из оптимальных способов устранения эколого-экологических проблем. Также примером внимания к "Зеленой экономике" является утвержденный 02.02.2021 5-й выпуск "Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития", названный "Чистая окружающая среда и страна "зеленого" роста".



***Ключевые слова: Ильхам Алиев, зеленая экономика, реформа, концепция, развитие.***



***Sanan Elchin Huseynov,***
***scientific supervisor: s.e.y.e.v. Professor Irada Nuriyeva***
***Azerbaijan state oil and Industry University***


## Green environment, economy and energy reforms conceptualized as Heydar Aliyev policy


***Summary***

The author of the successful results of the economy in our republic is Heydar Aliyev and his worthy follower Ilham Aliyev. Currently, state support allocated to the "Green economy" is one of the optimal ways to eliminate ecological and environmental problems. Also, the 5th issue of "Azerbaijan 2030: National Priorities for socio-economic development" approved on 02.02.2021, naming "Clean environment and "green" growth country" is an example of attention to "Green economy".



***Key words: Ilham Aliyev, green economy, reform, concept, development.***